

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 146 (23.057)

4 avqust 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikada aqrar sahənin dayanıqlı inkişafı üçün zəmin yaradılıb

***Naxçıvan Muxtar Respublikasında aqrar sahənin uğurlu inkişafı Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Məlum olduğu kimi, Azərbaycanın müstəqillik əldə etdiyi ilk dövrlərdə də ölkədə ictimai-siyasi xaos la yanaşı, güclü iqtisadi böhran da hökm sürürdü. Belə gərgin dövrdə ümummilli liderin Naxçıvana qayıdışı blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının təhlükələrdən xilas olmasına, iqtisadiyyatının dirçəldilməsinə, sonrakı hərtərəfli inkişafına güclü təsir göstərdi.***



1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın Culfa rayonunda ilk dəfə olaraq ictimai təsərrüfatda islahata başlanıldı və yeni özəl təsərrüfat qurumları yaradıldı. Həmin il aprel ayının 6-da “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi haqqında” Qanun qəbul edildi. Bununla da ölkəmizdə ilk aqrar islahatlar Naxçıvanda həyata keçirildi.

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün görkəmli dövlət xadiminin bilavasitə rəhbərliyi və iştirakı ilə hazırlanan, geniş və hərtərəfli müzakirə edilən, “Aqrar islahatın əsasları haqqında” və “Sovxoz və kolxozların islahatı haqqında”, “Torpaq islahatı haqqında”, “Lizinq xidməti haqqında”, “Torpaq icraiyyəsi haqqında”, “Torpaq bazası haqqında” qanunlar və digər dövlət sənədlərinin böyük əhəmiyyəti olub. Aqrar islahatların aparılması, həyata keçirilən təşkilati, siyasi və digər tədbirlər tezliklə öz bəhrəsini verdi, aqrar sahədə dönüş yarandı.

Naxçıvan Muxtar Respublikasında suvarma işinin təşkili, kənd təsərrüfatının inkişafının əsas amillərindən biri kimi daim diqqətdə saxlanılıb. Bu təbii sərvətlərlə zəngin diyarda əkinçilik təsərrüfatının inkişaf etdirilməsində göllərin və su anbarlarının da özünəməxsus yeri vardır. Muxtar respublikanın ərazisi quraq iqlimə malik olduğundan burada yerləşən Göygöl, Salvartı, Qanlıgöl və Batabat göllərinin sahəsi və həcmi kiçikdir. Vaxtilə bu təbii su mənbələrindən də əlverişli şəkildə istifadə olunmurdu.

Muxtar respublikamızda suvarma suyu ilə bağlı yaranan problemlərin həlli üçün ötən dövr ərzində bir sıra layihələr həyata keçirilib. Heydər Əliyev Su Anbarı, Arpaçay Su Anbarı və Uzunoba, Nehrəm, Qazançı, Təzəkənd, Dəstə, Axura, Sirab, Qahab, Çalxanqala, Qıvraq, Xok, Qarabağlar kəndlərindəki su mənbələrinin adını qeyd etmək olar. Heydər Əliyev Su Anbarı istifadəyə verildikdən sonra Babək rayonunda 4364, Culfa rayonunda 2311, Şahbuz rayonunda 244 hektar olmaqla, ümumilikdə, 6919 hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə qatılıb. Bu anbar vasitəsilə suvarılan torpaqların sahəsi 16 min 830 hektara çatdırılıb. Naxçıvanın su ehtiyatlarını artırmaq məqsədilə mövcud su anbarlarında təmir işləri aparılıb, yenilərinin tikilməsi üçün müvafiq tədbirlər həyata keçirilib. 2007-ci ildə Arpaçay Su Anbarında əsaslı təmir işlərinə başlanılıb və 2008-ci ilin sonunda istismara verilib. Nəticədə, Şərur, Sədərək və Kəngərli rayonlarında suvarma işi xeyli yaxşılaşdırılıb. 2010-cu ildə muxtar respublikada suvarma tədbirlərinin həyata keçirilməsi məqsədilə 97 nasos stansiyasından, 766 subartezian quyusundan və 339 kəhrizdən istifadə olunub. Muxtar respublikada nasos stansiyalarının və subartezian quyularının artırılması kənd təsərrüfatının tənzimedici işlərə sərf etdikləri xərci xeyli azaldıb və su təminatını artırıb.



Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 dekabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının ərazisində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının qazılması məqsədilə 2 milyon manat vəsait ayrılıb. Muxtar respublikada aqrar sahənin maddi-texniki bazasının gücləndirilməsi nəticəsində kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə məhsul istehsalının səviyyəsi dəfələrlə artıb. Bütün bunlar isə günbəgün yeniləşən bu diyarın parlaq gələcəyindən xəbər verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir. Bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir. Burada gedən işlər məni çox sevindirir. Mən əminəm ki, bu gözəl ənənələr gələcək illərdə də davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır”.***

Əldə olunmuş sosial-iqtisadi inkişaf səviyyəsini qorumaq və daha da möhkəmləndirmək məqsədilə Ali Məclis Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq edilib. Həmin il dekabr ayının 27-də keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında qədim diyarda formalaşan təsərrüfatçılıq ənənələrinin inkişaf etdirilməsi məqsədilə 2015-ci il Naxçıvan Muxtar Respublikasında “Kənd təsərrüfatı ili” elan olunub. Bu isə o deməkdir ki, aqrar sahəyə qayğı, onun inkişafını diqqətdə saxlamaq davamlı xarakter alıb və bu, kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsinə istiqamətlənmiş növbəti addımdır.

Son illər meliorasiya və irriqasiya sistemlərindən səmərəli istifadənin təşkili, suvarma şəbəkələrinin genişləndirilməsi, su sistemlərində təmir-bərpa işlərinin görülməsi nəticəsində suvarılan torpaqların su təminatı və onların meliorativ vəziyyəti yaxşılaşdırılıb. Belə ki, Heydər Əliyev Su Anbarından başlayan Vayxır sol sahil kanalı üzərində Babək rayonunun Nehrəm kəndində 1170, Culfa rayonunun Bənəniyar kəndində 1050 hektar olmaqla, ümumilikdə, 2220 hektar sahəni əhatə edən 241,5 kilometrlik qapalı suvarma şəbəkəsi tikilib, 77,5 kilometr məsafədə yeni drenaj xətti çəkilib, 6,5 kilometrlik kollektor bərpa olunub. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində isə 400 hektar ərazini əhatə edən qapalı suvarma şəbəkəsi bərpa edilib. Böyükdüz və Xok kəndlərini əhatə edən 117 hektar ərazidə yeni qapalı suvarma şəbəkəsi tikilib, nəticədə, su itkisinin qarşısı alınıb, suvarma suyundan səmərəli istifadə etmək üçün şərait yaradılıb.

Bu il may ayının 16-da ölkə prezidenti cənab İlham Əliyevin Naxçıvana növbəti səfəri muxtar respublika üçün çox uğurlu olub, muxtar respublikada aqrar sahəni daha da inkişaf etdirmək məqsədilə sərəncam imzalanıb. Sərəncamda deyilir: *“Aqrar sahədə aparılan uğurlu islahatlar nəticəsində bir sıra strateji məhsullara tələbatın yerli istehsal hesabına təmin edilməsi, ölkənin ərzaq təhlükəsizliyində xarici bazardan asılılığın azaldılması, ixracyönümlü məhsulların istehsal həcminin artırılması istiqamətində son illərdə mühüm addımlar atılmışdır. Respublikada müasir tələblərə cavab verən su anbarlarının, nasos stansiyalarının, suvarma kanallarının və digər su təsərrüfatı obyektlərinin tikilməsi, on minlərlə hektar torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsi aqrar sektorun dayanıqlı inkişafı üçün zəmin yaratmış, kənd təsərrüfatı bitkiləri və heyvandarlıq məhsulları istehsalının inkişafına xidmət edən aqroparkların və iri kənd təsərrüfatı müəssisələrinin fəaliyyətə başlamasına imkan vermişdir.*

*2017-ci ildə Naxçıvan Muxtar Respublikasında mövcud potensialdan səmərəli istifadə olunmaqla görülmüş meliorativ tədbirlər nəticəsində 407 hektar sahədə su resurslarından qənaətlə istifadəyə imkan verən müasir suvarma sistemlərinin quraşdırılması başa çatdırılmışdır”.*

Həmin sərəncama əsasən “Pivot” layihəsi çərçivəsində 1000 hektar əkin sahəsində müasir suvarma (yağışyağdırma) sistemlərinin quraşdırılması işlərinin davam etdirilməsi məqsədilə 5 milyon manat vəsait ayrılıb. Əminliklə demək olar ki, bu, muxtar respublikamızda suvarma sisteminin müasir dövrün tələbləri səviyyəsində qurulmasına öz töhfəsini verəcəkdir.

Meliorasiya və su təsərrüfatı iqtisadiyyatın, xüsusilə kənd təsərrüfatının inkişafında mühüm rol oynayır. Yuxarıda qeyd olunduğu kimi, bu istiqamətdə müvafiq fərman və sərəncamlarla təsdiq edilmiş dövlət proqramlarında meliorasiya və su təsərrüfatı sahəsi üzrə geniş tədbirlər nəzərdə tutulub və onların bir çoxu artıq reallaşdırılıb. Bu mənada, muxtar respublikada suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması istiqamətində işlərin uğurla həyata keçirilməsi artıq öz müsbət nəticələrini verməkdədir. Naxçıvanda torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, yeni suvarılan torpaqların istifadəyə verilməsi əhalinin ərzaq məhsullarına olan tələbatının, əsasən, yerli istehsal hesabına ödənilməsinə əlverişli şərait yaradıb.

**Xəzər HÜSEYNOV**
***tarix üzrə elmlər doktoru***

## Fövqəladə hallara hazırlıq diqqət mərkəzindədir



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və onun struktur qurumları 2018-ci ilin iyul ayı ərzində muxtar respublikada mülki müdafiə, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən sahələrində təhlükəsizliyin təmin edilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələri icra etmişdir.

Ötən dövrdə istehsalat müəssisələrində texniki təhlükəsizliyin təmin olunması, hadisələrin vaxtında qarşısının alınması məqsədilə 4 müəssisədə 14 təhlükə potensiallı qurğu və avadanlıq sertifikatlaşdırılmış, 6 təhlükə potensiallı obyektdə əməli yoxlama keçirilmiş, 21 təhlükə potensiallı obyektdə mühafizə işinin təşkili vəziyyəti yoxlanılmışdır. Dövlət reyestrində qeydiyyatdan keçmiş 2 təhlükə potensiallı obyekt, 72 qurğu və avadanlıq təkrar qeydiyyata alınmışdır. İdarə və təşkilatlara məxsus 36 texnoloji nəqliyyat vasitəsi texniki baxışdan keçirilmiş, mülki müdafiə işinin təşkili ilə bağlı məşğələlərdə 1133 nəfər iştirak etmişdir. Muxtar respublikada yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə 285 obyektdə müayinələr, 90 obyektdə maarifləndirici söhbətlər aparılmışdır. İntensiv biçin aparılan sahələrdə yanğınsöndürmə avtomobillərinin növbətçiliyi, magistral yol kənarlarında isə motoxilasedicilərin patrul xidməti təşkil olunmuş, 64 obyekt yanğından icbari sığortalanmışdır.

Muxtar respublika ərazisində tikinti və yenidənqurma işləri aparılan 38 obyektə baxış keçirilmiş, Ağbulaq Xizək Mərkəzinin tikintisi ilə bağlı müəyyən olunmuş ərazidə kanat yolu üçün dirəklər və liftlərin tikintisi planlaşdırılan yerlərdə, Naxçıvan Beynəlxalq Hava Limanının ərazisində, Şahbuz şəhərində Aviakassa və yaşayış binasının tikintisi ilə bağlı müəyyən olunmuş sahədə qrunt nümunələri götürülərək laboratoriya sınaqları aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Qeyri-formal məşğulluğun qarşısının alınması məqsədilə monitorinqlər davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın həyata keçirilməsinə dair tədbirlər planının icrası çərçivəsində monitorinqlər davam etdirilir. Monitorinqlər Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin, Dövlət Sosial Müdafiə Fondunun, Dövlət Statistika Komitəsinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin nümayəndələrindən ibarət komissiya tərəfindən aparılır. Qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqavilələrinin bağlanılması, həmçinin əmək müqavilələrində əməkhaqlarının real göstərilməsini müəyyən etmək məqsədi daşıyan növbəti monitorinqlər zamanı Ordubad və Şahbuz rayonları üzrə, ümumilikdə, 57 obyektdə 35 işçi ilə yeni əmək müqavilələrinin bağlanılması təmin edilib, 100 işçinin isə əmək müqaviləsində əməkhaqqının real göstərilməsinə nail olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanın gecələri də gündüzləri kimi işıqlıdır

### “Arpaçay-1” və “Arpaçay-2” Su Elektrik stansiyaları da buna öz töhfələrini verir

*Şərur rayonundakı “Arpaçay-1” və “Arpaçay-2” Su Elektrik stansiyaları haqqında yazı hazırlayarkən qeyri-ixtiyari olaraq neçə illər əvvəl yaşadığımız qaranlıq gecələrimizi xatırladım. Və əslində, o günlər heç unudulası da deyil. Çünki normal həyat tərzinin təmin edilməsində elektrik enerjisinin oynadığı rolu bu gün hər kəs yaxşı bilir. Elə o illərdə yaranmış bir ifadə də yadıma düşür: Allah heç kimi işıqla imtahana çəkməsin.*



Bu gün qürur duyuruq ki, o imtahandan çıxa bildik. Yurd yerinin sabahına, onun insanlarının taleyinə cavabdehlik hissi bu problemin həllində başlıca amil oldu. Daha dəqiq desək, nəinki həmin problem aradan qaldırıldı, həmçinin muxtar respublika enerji idxal olunan bir diyardan enerji ixrac edən bir məmləkətə çevrildi. Həyata keçirilən bu layihələr muxtar respublikanın elektrik enerjisi ilə təminatında mühüm rol oynayaraq, ümumilikdə, ölkəmizin enerji təhlükəsizliyinə töhfə verir. Bu stansiyalar qədim diyarımızın iqtisadi inkişafının təmin edilməsində də müstəsna rol oynayır. Sovet hakimiyyəti illərində cəmi 1 su elektrik stansiyası olan muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində onların sayı xeyli artıb. Faktlara nəzər salaq. Əvvəlcədən mövcud olan 22 meqavat gücündə Araz Su Elektrik Stansiyası, 2006-cı ildə Naxçıvanın enerji təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən və ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyasının işə salınması, turbinlərin qazla işləmə rejiminə keçirilməsi nəticəsində Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının gücünün artırılaraq 60 meqavata çatdırılması, sonradan müxtəlif dövrlərdə bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə elektrik stansiyasının, Ordubadda 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyasının fəaliyyətə başlaması muxtar respublikada enerji təhlükəsizliyini tam təmin edir. Belə tədbirlərin nəticəsidir ki, diyarımız artıq enerji ixrac edir. Bu stansiyalar içərisində “Arpaçay-1” və “Arpaçay-2” Su Elektrik stansiyalarının da rolu var.

Şərur rayonunda tikintisinə 2011-ci ildə başlanmış 150 milyon kubmetr su tutumlu Arpaçay Su Anbarının suyundan istifadə etməklə 20,5 meqavat güclü derivasiyatipli “Arpaçay-1” Su Elektrik Stansiyasının tikintisi dövründə 1100 metr uzunluqlu 3,9 metr diametri olan tunel qazılıb, betonlaşdırılıb, suqəbuledici qurğuda qapılar qoyulub, stansiya üçün bina tikilib, suötürmə kanalından turbinlərə suyu ötürmək üçün yüksəktəzyiqli metal borudan istifadə olunub. Stansiyada Avstriyanın “Andritz” firmasından alınmış iki ədəd 7,75 meqavat güclü və bir ədəd 5 meqavat güclü turbinlər, Fransanın “Leroy-Somer” firmasından alınmış müvafiq güclü generatorlar quraşdırılıb, burada istehsal olunan elektrik enerjisini elektrik şəbəkələrinə ötürmək üçün 30 meqavoltamper gücündə transformator yarımstansiyası tikilib, 10 kilometr uzunluqlu 110 kilovoltluq elektrik verilişi xətti çəkilib. İl ərzində 60 milyon kilovatsaat elektrik enerjisi istehsal edilməsi nəzərdə tutulan stansiyada tikinti-quraşdırma, sınaq-sazlama işləri 2013-cü ilin sonlarında tamamilə başa çatdırılıb. Stansiya binasında müasir iş otaqları və idarəetmə mərkəzi, nəzarət-mühafizə sistemləri yaradılıb. Bu da stansiyanın iş rejimini daim nəzarətdə saxlamağa imkan verir. Binada 8 meqavat gücündə iki, 4,5 meqavat gücündə bir turbin quraşdırılıb. Bu energetika qurğusunda bütün emal prosesi avtomatlaşdırılıb. Stansiya 2014-cü il aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istismara verilib. Stansiyanın açılışında dövlət başçısı deyib: *“Naxçıvanın enerji təminatı məsələləri ön plandadır. Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk. Son illərdə Naxçıvanda 5 elektrik stansiyası tikilmişdir. Demək olar ki, Naxçıvanda enerji təhlükəsizliyi məsələləri tam şəkildə öz həllini tapmışdır. Son illərdə biz Vayxır, Biləv Su Elektrik stansiyalarının açılışlarını qeyd etmişik və bu gün Naxçıvanın enerji ilə təminatı su elektrik stansiyalarının xətti ilə icra edilir. Bu da Naxçıvanı dünya miqyasında çox nadir bir respublika kimi təqdim edir. Çünki dünyada çox nadir hallarda daxili tələbat bərpa olunan enerji növləri hesabına təmin edilir. Bu gün Naxçıvanın reallıqları belədir ki, su elektrik stansiyalarının fəaliyyəti sayəsində Naxçıvanın tam enerji təminatı həll edilib. Bu gün Naxçıvanın enerji potensialı 220 meqavata yaxındır və bu da imkan verir ki, eyni zamanda Naxçıvanın ixrac potensialı da artsın”.*

O da vurğulanmalıdır ki, Naxçıvanda Günəş Elektrik Stansiyasının işə salınması ilə bu rəqəm 239,4-ə çatdırılıb.

Qeyd edək ki, 2017-ci il ərzində “Arpaçay-1” Su Elektrik Stansiyasında 49 milyon 183 min kilovatsaat elektrik enerjisi istehsal edilib ki, bu da muxtar respublika ərazisində mövcud su elektrik stansiyalarında istehsal olunan enerjinin 29 faizini təşkil edir.

Həmin gün “Arpaçay-2” Su Elektrik Stansiyası da istifadəyə verilib. Bu işlər ölkə Prezidenti cənab İlham Əliyevin 2014-cü il martın 14-də “Naxçıvan Muxtar Respublikasında “Arpaçay-2” Su Elektrik Stansiyasının tikintisinin maliyyələşdirilməsi haqqında” imzaladığı Sərəncam əsasında aparılıb. Sərəncama əsasən “Arpaçay-2” Su Elektrik Stansiyasının tikintisini başa çatdırmaq məqsədilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 4 milyon manat ayrılıb. Arpaçay Su Anbarının aşağı gölü üzərində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti ilə “Gəmiqaya Yol, Su, Enerji” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında bağlanmış müqaviləyə əsasən gücü 1,4 meqavat olan “Arpaçay-2” Su Elektrik Stansiyası cəmi 1 il ərzində tikilib başa çatdırılıb. 2014-cü il aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə işə salınan stansiyada Avropa Birliyi ölkələrində istehsal olunmuş turbinlər, generatorlar, avtomatika, rele mühafizəsi və idarəetmə qurğuları qoyulmuş bu stansiya il ərzində 3,5 milyon kilovat-saata qədər elektrik enerjisi istehsal etmək gücünə malikdir. Stansiyanın anbarının ümumi su tutumu 3 milyon kubmetrdir. Əsasən, paylayıcı funksiyanı yerinə yetirən stansiya əhalinin elektrik enerjisi ilə fasiləsiz təmin olunmasına və daha geniş ərazidə əkin sahələrinin suvarılmasına əlverişli imkanlar yaradıb.

2017-ci il ərzində “Arpaçay-2” Su Elektrik Stansiyasında 2 min 468 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Bu da muxtar respublika ərazisində mövcud su elektrik stansiyalarında istehsal olunan enerjinin 1,43 faizini təşkil edir.

Onu da qeyd edək ki, hər iki stansiyanın su anbarlarından götürülən sudan min hektarlarla əkin sahələri suvarılır. Həmçinin bu obyektlərin istifadəyə verilməsi əhalinin məşğulluğunun təmin olunmasına da müsbət təsirini göstərib, 20 nəfər özünə daimi iş yeri tapıb.

Bəli, bu gün Naxçıvanın gecələri də gündüzləri kimi işıqlıdır. “Arpaçay-1” və “Arpaçay-2” Su Elektrik stansiyaları da buna öz töhfələrini verir.

✍ **Muxtar MƏMMƏDOV**

*Muxtar respublikamızda iqtisadiyyatın əsasını təşkil edən aqrar sektor bu sahəyə göstərilən ardıcıl dövlət qayğısı sayəsində özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu isə eyni zamanda daxili bazarda yerli istehsal məhsullarının xüsusi çəkisini xeyli artırmaqla süfrələrimizin zənginliyinin təmin olunması deməkdir. Həmin sahələrdən biri də arıçılıqdır.*

## Arıçılıqda bol məhsul istehsalında köçürülmələr mühüm vasitədir



Arıçılıqla məşğul olan sahibkarlara yaradılan şərait, onlara arı almaq üçün verilən kreditlər bu sahənin inkişafına müsbət təsirini göstərib. Faktlara müraciət edək: 2017-ci ildə arıçılıq təsərrüfatlarına 50 min manat kredit verilib ki, bunun da nəticəsində 3 yeni arıçılıq təsərrüfatı, 1 mum vərəqi istehsalı sahəsi yaradılıb. Bu gün Naxçıvan Muxtar Respublikasında 4070 sahibkar arıçılıqla məşğuldur. Bunların 549 nəfəri 20-250 arı ailəsi olan sahibkardır. Aqrar sahədə aparılan islahatlardan əvvəl muxtar respublikamızda cəmi 6045 arı ailəsi var idisə, indi bu rəqəm 71 min 66-ya çatdırılıb. Arı ailəsinin belə artımının nəticəsidir ki, ötən il muxtar respublikamızda 1424 ton bal istehsal olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il noyabrın 18-də “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında imzaladığı Sərəncamdan irəli gələn vəzifələrin icrası istiqamətində ötən müddət ərzində xeyli iş görülüb. Həyata keçirilən tədbirlərdən biri də 2016-2017-ci illərdə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Arıçılıq məhsulları-bal festivalı”nın təşkilidir. Festivalda arıçılıq məhsullarının və balın sərgi və satışının təşkili bu sahəyə marağı xeyli artırıb.

Qeyd olunmalıdır ki, muxtar respublikada arıçılığın yem bazasını aran, dağətəyi və dağlıq ərazilərin bitki örtüyü təşkil edir. Naxçıvanın təbii-coğrafi iqlim şəraitini, eyni zamanda bitki örtüyünün müxtəlifliyini nəzərə alaraq arı ailələrinin normal inkişafını təmin etmək üçün onların mövsüm ərzində azı beş dəfə köçürülməsi vacibdir.

İlk olaraq qışlamadan çıxmış arı ailələri dağətəyi bölgələrdən aran bölgələrinə köçürülür. Bu dövrdə aran bölgələrində hava şəraitinin başqa bölgələrə nisbətən isti keçməsi arı ailələrinin oyanmasına və ana arıların yuva daxilində daha erkən yumurta qoymasına səbəb olur. Arı ailələri bu zaman yuva daxilində ehtiyat baldan və çiçək tozundan istifadə edərək inkişafa başlayır. Bu zaman şanlarda balın möhürünün arıçı tərəfindən az miqdarda açılması diqqətdə saxlanılmalıdır. Möhürü açılmış balın iyi arıları özünə cəlb edir. Balla qidalanma arı ailələrinin daha tez oyanmasına və inkişafın erkən başlamasına səbəb olur. Arı ailələri mart ayının ikinci ongünlüyünə qədər yuvadaxili qidanın hesabına inkişaf edərək keyfiyyətcə yeni, cavan nəsil ilə əvəz olunur.

May ayının 15-nə kimi aran bölgələrində işləyən arı ailələrini yenidən dağətəyi bölgələrə aparmaqla onların ikinci köçürülməsi təşkil edilir. Arı ailələrini, əsasən, bitkilərin nektar əmələgətirmə dövründə dağətəyi bölgələrə və ilin ən isti aylarında isə (iyulda) dağlıq bölgələrə aparmaqla üçüncü köçürülməsi təşkil edilir. Avqust ayında arı ailələrini aran bölgələrinə yenidən qaytarmaqla onların dördüncü köçürülməsi həyata keçirilir. Arıların son işləmə dövrü avqust və sentyabr aylarıdır. Bu dövrdə arılar nektar və çiçək tozunu yoncadan, üzümdən və payız çiçəklərindən toplayırlar. Oktyabr ayının əvvəlindən arı ailələrinin yuvası qış üçün yığılır və respublikanın dağətəyi bölgələrinə aparmaqla onların son – beşinci köçürülməsi təşkil edilir. Arıçılar arı ailələrini yerli şəraitdən asılı olaraq əsas nektar əmələgəlmə dövründə bir dəfə əvəzinə, iki və ya üç dəfə köçürə bilərlər. Arı ailələri vaxtında, planlı qaydada köçürülməlidir. Bunun üçün arıçı öz bölgəsinin hər bir hektarında olan bitki örtüyündəki nektarın, təxminən, nə qədər olmasını bilməlidir.

Bal arılarının əlverişli uçuş diametri 3 kilometrdir. Bu, o deməkdir ki, pətəyin olduğu yerdən bütün istiqamətlərə tərəf 3 kilometr uzaqlıqda olan bitkilərdən arılar nektar toplaya bilər.

Arı ailələrinin nektar əmələgəlmə dövrünə qədər inkişafının başa çatması, onun gücünün standarta uyğun gəlməsi və arı ailələrinin planlı surətdə, mövsüm dövründə köçürülməsinin optimal təşkili bal məhsuldarlığının artırılmasında əsas amillərdir. Köçürülmə işinin düzgün təşkil edilməsi, ilk növbədə, arı ailələrinin standart gücdə inkişaf etməsinə səbəb olur. Arıçılıqla məşğul olan fermerlər arı ailələrinin yonca və xaşa bitkiləri olan əkin sahələrinin, təbii biçənəklərin, meşəliklərin yaxınlığına, bir sözlə, çiçək bol olan ərazilərə köçürülməsinə üstünlük verməlidirlər. Çünki bu, məhsuldarlığın yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## “Müasir Məkan” öz fəaliyyətini genişləndirib

2003-cü ildə fəaliyyətə başlayan “Müasir Məkan” ət və ət məhsulları istehsalı müəssisəsi ötən dövr ərzində istehsalda bir sıra nailiyyətləri ilə yadda qalıb. İstehsal obyekti Naxçıvan şəhərinin Babək məhəlləsində yerləşir. Burada istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün soyuducu anbar, laboratoriya, inzibati bina vardır.

Müəssisədə Polşa istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. Həmçinin müəssisənin daim təzə ətlə təmin olunması üçün Culfa rayonunun Gülüstan kəndi ərazisində yardımçı təsərrüfat yaradılıb.






Müəssisədə istehsal olunan məhsulların ölkəmizin digər regionlarında satışının təşkili üçün ardıcıl tədbirlər həyata keçirilir. Belə ki, ötən il Bakı şəhərinin Nərimanov rayonunda 2, Nizami rayonunda isə 1 mağaza fəaliyyətə başlayıb. Müəssisə ötən ay daha bir uğura imza atıb. Belə ki, iyulun 6-da Gəncə şəhərinin Şah İsmayıl Xətai prospektində yeni satış mərkəzi açılıb. “Müasir Məkan” ət və ət məhsulları istehsalı müəssisəsi və “Savalan S” MMC-nin birgə qurduğu mağazada müxtəlif meyvələrdən hazırlanan şərablar, cürbəcür şirniyyat növləri, qarışıq çərəzlər, eləcə də müalicəvi əhəmiyyətli mineral sular və meyvə şirələrinin satışı həyata keçirilir. Burada, həmçinin Naxçıvanın kolbasa və sosisləri, qədim diyarın brendinə çevrilən duzu, müxtəlif meyvələrdən hazırlanan mürəbbələr, bəkməz, konservləşdirilmiş ət məhsulları, baldırğan və çaşır turşuları, ətri və keyfiyyəti ilə seçilən çaylar alıcıların ixtiyarına verilib.

✍ **Nail ƏSGƏROV**



***Azərbaycanda milli ordu quruculuğu çox çətin, mürəkkəb və ziddiyyətli mərhələlərdən keçib. Milli ordunun keçdiyi tarixi yol bugünkü və gələcək nəsillər üçün böyük örnəkdir.***

# Hərbi kadr hazırlığı milli ordu quruculuğunda mühüm rol oynayır

Ölkəmizdə milli hərbi kadr hazırlığı işi də ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 1971-ci ildə keçmiş SSRİ-də hərbi təmayüllü iki internat məktəbi vardı: Naximov və Suvorov adına hərbi təmayüllü məktəblər. Lakin tədrisin rus dilində olması və Azərbaycandan uzaqda yerləşmələri həmin məktəblərdə azərbaycanlıların təhsil almasını çətinləşdirirdi. Ümummilli lider Heydər Əliyevin 1971-ci ildə böyük səyləri nəticəsində Azərbaycanda hərbi kadrlar hazırlayan məktəb yaradıldı. Həmin dövrdə Azərbaycan ildə, təxminən, 60 min gənci ordu sıralarına göndərirdi. Sovet rejiminin ən güclü vaxtlarında respublikamızda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılmasına ovaxtkı mərkəz heç bir vəchlə yol vermək istəmirdi. Təsadüfi deyil ki, həmin dövrdə Moskvadan Bakıya təşrif buyuran emissarlar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışırdılar. Amma ulu öndərimiz mahir diplomatiyası ilə bu cəhdlərin qarşısını aldı.

Azərbaycan Maarif Nazirliyi və respublika Hərbi Komissarlığı Azərbaycan KP MK Bürosunun 1971-ci il 29 aprel tarixli qərarını əsas götürərək, hərbi təmayüllü internat məktəbinin açılması üçün 1971-ci il iyunun 16-da müraciət hazırladı. Bu müraciət dərhal müzakirə olundu və 20 iyul 1971-ci ildə "İxtisaslaşdırılmış internat məktəbinin yaradılması haqqında" Azərbaycan KP MK Bürosu qərar qəbul etdi. Hərbi məktəb 1971-ci ildə Bakı şəhərindəki 2 saylı 8 illik internat məktəbinin bazasında yaradıldı. Həmin ilin noyabr ayında məktəbin açılışı oldu. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev bu təntənəli mərasimdə iştirak etdi və bildirdi ki, yeni məktəbə diviziya komandiri general Cəmşid Naxçıvanskinin adı verildi. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli Sərəncamı ilə həmin məktəbin adı dəyişdirilərək Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırıldı.

Görkəmli dövlət xadiminin təşəbbüsü ilə yaradılan məktəb Azərbaycan müstəqil olandan sonra onun ordu quruculuğunun əsas bazalarından birinə çevrildi. Həmin məktəbin müdavimləri bu gün müstəqil respublikamızın Silahlı Qüvvələrinin komandirləri və generallarıdır. Sonralar görkəmli dövlət xadimi bu haqda belə deyirdi: ***"Bu məktəbi yaradanda heç vaxt ağlıma gətirə bilməzdim ki, 30 ildən sonra mən yenə də bu məktəblə bir yerdə onun yubileyini keçirəcəyəm. Ancaq bu şərəf mənə qismət olub və mən özümü xoşbəxt hesab edirəm".***

Sözügedən məktəb Azərbaycanda hərb sənətinə marağın güclənməsi, zabit kadrlarının hazırlanması istiqamətində fəaliyyət göstərməyə başladı. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 1998-ci ilin martında liseyin Naxçıvan filialı açıldı. Dövlət başçısının 2004-cü il 10 mart tarixli Fərmanı ilə hərbi məktəbə ümummilli liderimiz Heydər Əliyevin adı verildi. 56 kursantla fəaliyyətə başlayan hərbi liseydə bu gün 572 kursant təhsil alır. Builki məzunlar da nəzərə alınmaqla ötən 20 ildə hərbi liseyi 3 minə yaxın kursant bitirib. Hazırda onların 1600-dən çoxu Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edir.

Hər tədris ilinin sonunda liseydə məzun günü keçirilir. Bu il iyunun 23-də liseyin 20 illik yubileyi və 2018-ci il buraxılışı münasibətilə keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"Bu bir reallıqdır ki, ordunun gücü, onun döyüş qabiliyyəti yalnız güclü maddi-texniki baza və silah təminatı ilə deyil, həm də komandan-zabit heyətinin hərbi hazırlığı və vətənpərvərliyi ilə ölçülür. Vətənpərvər və peşəkar zabit heyəti olmadan nizami və mütəşəkkil ordu yaratmaq, döyüş tapşırıqlarını uğurla yerinə yetirmək mümkün deyil. Hər bir kursant hərbi təhsil sistemini mükəmməl mənimsəməli, bilik və təcrübəsini artırmalı, müasir silahları, hərbi texnikanı bacarıqla idarə etmək vərdişlərinə yiyələnməlidir".***



Keçmişə nəzər salsaq, görərik ki, 1991-ci ildə Azərbaycanın müstəqilliyini elan etməsi bütün dövlət təsisatları kimi, ordu quruculuğu üçün də geniş imkanlar açdı. Amma, təəssüflər olsun ki, o dövrdə Azərbaycana rəhbərlik edən şəxslər bu barədə nə real təsəvvürə, nə də gerçək ordu quruculuğu həyata keçirmək bacarığına malik deyildilər. Ölkədə nə iqtidarda olanlar, nə də hakimiyyətə gəlmək istəyənlər milli ordu yaradılması barədə düşünmürdülər.

Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan ümummilli liderimiz Heydər Əliyev isə elə ilk gündən etibarən güclü və intizamlı ordu yaradılmasını prioritet vəzifə sayırdı. Beləliklə, 1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş tədbirlər nəticəsində milli ordu quruculuğuna başlanıldı. Qısa bir müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı.

Müstəqil Azərbaycan dövlətinin banisi, görkəmli dövlət xadimi Heydər Əliyevin milli ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Hərbi hissələr müasir döyüş avadanlıqları ilə təchiz olunur, əsgər və zabitlərin sosial problemlərinin həlli istiqamətində tədbirlər həyata keçirilir. Bunu milli ordumuzun muxtar respublika ərazisində yerləşən hissələrində də görmək olar.

Ötən dövrdə hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində Naxçıvan şəhərində 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara yeni mənzillərin verilməsi, 2014-cü il yanvar ayının 29-da Daxili Qoşunların Naxçıvan Alayında zabit-gizir ailələri üçün xidməti yaşayış binasının istifadəyə verilməsi, Əlahiddə Ümumqoşun Ordusunun hissə və bölmələrinin komandir heyətinin yeni xidməti avtomobillərlə təmin olunması, əvvəlki illərdə aparılan hərbi quruculuq işlərinin davam etdirilməsi və digər tədbirlərin reallaşdırılması, ümumilikdə, orduya və orduda qulluq edən, xidməti borclarını yerinə yetirən zabit və əsgərlərə göstərilən qayğıdır. Onu da vurğulayaq ki, ötən 26 il ərzində muxtar respublikamızda 200-dən artıq hərbi obyekt tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib.

Bu gün muxtar respublikamızın ərazisində yerləşən Əlahiddə Ümumqoşun Ordu özünün döyüş qabiliyyətini artırıb. Məhz bunun nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordusu ötən il döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülüb. Bunu da xatırladaq ki, ötən il oktyabrın 18-də muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən hərbi parad da ordumuzun gücünü hər kəsə nümayiş etdirib. Həmin tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"...Ölkə rəhbərinin diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da artmış, maddi-texniki bazası möhkəmləndirilmiş, hərbçilərin sosial-məişət şəraiti yaxşılaşdırılmışdır. Hazırda müasir texnikalarla təchiz edilmiş Azərbaycan ordusu yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdir. Ali Baş Komandan Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə də xüsusi diqqət yetirir. Ölkə Prezidentinin 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən Naxçıvanda 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılması əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Naxçıvanın etibarlı müdafiəsi ilə bağlı görülən tədbirlərin davamıdır".***

Bu gün ölkəmizin və muxtar respublikamızın müdafiəsinin daha da gücləndirilməsində, təhlükəsizliyimizin yüksək səviyyədə qorunmasında yeni bir tarixi dövrə qədəm qoyulub. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər onu göstərir ki, Əlahiddə Ümumqoşun Ordusu bu gün qədim Naxçıvanın keşiyində inamla dayanır, muxtar respublikamızın müdafiəsində ona həvalə edilmiş missiyanı şərəflə yerinə yetirir. Heydər Əliyev adına Hərbi Liseyin məzunu olmuş hərbçilər də bu gün ordu sıralarında Vətənin müdafiəsində fəal iştirak edirlər.

**Bəsirə BUDAQOVA**
*tarix müəllimi*

# Görmə qabiliyyəti məhdud şəxslərin cəmiyyətə inteqrasiyası diqqət mərkəzindədir

*Muxtar respublikamızda sağlamlıq imkanları məhdud şəxslərin hüquqlarının təmin olunması, onların sosial müdafiəsi və cəmiyyətə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Bu qəbildən olan uşaqlara qayğının nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" təsdiq olunub.*

Dövlət proqramının icrası həmin kateqoriyadan olan uşaqların təhsil almasına, onların reabilitasiyasına, cəmiyyətə daha fəal inteqrasiyasına hərtərəfli şərait yaradıb. Bu vəzifələrin yerinə yetirilməsində Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin xüsusi rolu var. Qeyd edək ki, 2010-cu ildən fəaliyyət göstərən mərkəzdə məhdud fiziki imkanlı şəxslər üçün informasiya texnologiyaları tədris olunur. Bu görmə qabiliyyəti məhdud olan uşaqlara informasiya texnologiyaları sahəsində bilik və bacarıqların aşılanması ilə yanaşı, həm də bu qəbildən olan uşaqların təhsil səviyyəsinin yüksəldilməsi, mütaliə bacarıqlarının artırılması, eləcə də dünyagörüşünün formalaşdırılması istiqamətində mühüm rol oynayan brayl əlifbasının tətbiqinə də şərait yaradır. Hazırda bu əlifba ilə bir sıra kitab və jurnallar çap edilir. "Könül işığı" adlı brayl jurnalının nəşri də bu istiqamətdə görülən işlərin davamıdır.




Mərkəzin əməkdaşı, brayl üzrə redaktor Elməddin Kərimovla söhbət zamanı bildirdi ki, görmə qabiliyyəti məhdud şəxslər üçün "Könül işığı" adlı brayl jurnalının ilk nömrəsi 2014-cü il mart ayının 14-də işıq üzü görüb. Jurnalın nəşrində əsas məqsəd görmə qabiliyyəti məhdud olan şəxsləri günü-gündən yeniləşən muxtar respublikamızın dinamik inkişafı barədə məlumatlandırmaq, xalqımızın tarixini, milli dəyərlərini təbliğ etməklə onların bu sahədə biliklərini artırmaqdır.

Ölkəmizdə ilk dəfə muxtar respublikada işıq üzü görən bu brayl jurnal ayda bir dəfə oxucuların görüşünə gəlir və onlara pulsuz çatdırılır. Eyni zamanda jurnalın hər nəşrindən sonra onun audio versiyası hazırlanır və audiokitabxana xidmətinin kataloquna daxil edilir. Bu isə görmə qabiliyyəti məhdud şəxslərin həm də bu imkandan istifadə etmələrinə şərait yaradır. Jurnalın bu il üçün 6-cı nömrəsi hazırlanıb və bu günlərdə 7-ci nömrəsi oxuculara təqdim olunacaq.




Elməddin müəllim qeyd etdi ki, jurnal "Şərq qapısı" qəzetində dərc olunmuş müvafiq materiallar əsasında hazırlanır ki, bu da, əsasən, muxtar respublikamızın tarixinin, mədəniyyətinin, adət-ənənələrinin zənginliyini özündə əks etdirir.

Müsahibimizin sözlərinə görə, 2017-ci ildən fiziki imkanları məhdud balacalar üçün "Şəfəq" adlı brayl jurnalı da nəşr edilir. Bu jurnalda atalar sözləri, yanıltmaclar, tapmacalar, balaca dostlar üçün vətənpərvər ruhda yazılan hekayə və şeirlər, milli atributlar haqqında məlumatlar öz əksini tapır. Jurnalın artıq bu il üçün 2 nömrəsi oxuculara təqdim edilib.

Elməddin müəllim onu da vurğuladı ki, mərkəz tərəfindən brayl əlifbası ilə çap olunan jurnallarla yanaşı, kitablar da nəşr edilir. Onlardan Azərbaycan Respublikasının Konstitusiyasını, eyni zamanda Əzizə Cəfərzadənin, İlyas Əfəndiyevin, Məmməd Arazın və bir çox tanınmış simaların seçilmiş əsərlərini göstərmək olar.

Son illərdə bu qəbildən olan insanlar üçün mərkəz tərəfindən həyata keçirilən bu tədbirlər sağlamlıq imkanları məhdud insanların cəmiyyətin aktiv üzvünə çevrilməsinə geniş imkanlar açıb. Yaradılan şərait onların maraq göstərdikləri sahələrdə uğur qazanmalarında əvəzsiz rol oynayır.

**Gülcamal TAHİROVA**

*Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun Antik Naxçıvan arxeoloji ekspedisiyası Naxçıvançay vadisindəki Meydantəpə qədim yaşayış yerində arxeoloji tədqiqatlara başlayıb.*

# Naxçıvanda Meydantəpə yaşayış yeri tədqiq olunur



4 hektar sahəni əhatə edən Meydantəpə şəhərtipli antik yaşayış yeri Nəzərabad kəndinin yaxınlığında, Naxçıvan-Şahbuz magistral yolunun kənarında yerləşir. Tədqiqatlar zamanı aşkar olunmuş materiallar eradan əvvəl IV, bizim eranın III əsrlərini əhatə edir. Arxeoloqların ərazidə apardığı qazıntılar zamanı dördkünc formalı binalar və xeyli maddi-mədəniyyət nümunələri, dən daşları, iri təsərrüfat küpünün qalıqları aşkar olunub. Tədqiqatçılar həmin materiallara əsaslanaraq Meydantəpədə həyatın eradan əvvəl I minilliyin ortalarına qədər davam etdiyini bildirirlər.

Arxeoloji tədqiqatlar zamanı tapılan maddi-mədəniyyət nümunələri Naxçıvanın şəhər mədəniyyətini, sənətkarlığı, təsərrüfat həyatını və ticarət əlaqələrini özündə əks etdirir. Tədqiqat işləri davam etdirilir.

**Xəbərlər şöbəsi**

# Gəncləşən NAXÇIVANIM









*Tarixin yaddaşında*
*Pozulmaz bir izin var,*
*Nuh Peyğəmbər dövründən*
*Söhbətin var, sözün var.*
*Haqdan ocaq çatmısan-*
*Sönməyən od-közün var,*
*Hər gözə şax baxmağa*
*Cürətin var, üzün var,*
*Hər eldə, hər diyarda*
*Üzü ağ Naxçıvanım!*
*Gecəsi də gündüztək*
*Çilçıraq Naxçıvanım!*

*Min bir naxış vurulur*
*Yenə torpağa, daşa.*
*Bu gün, Nəqşi-cahanım,*
*Gözəlsən başdan-başa.*
*Bir arzun, bir niyyətin*
*Toxunmasın qoy daşa.*
*Qurub-yaradan əllər,*
*Yaşa, səni yüz yaşa!*
*Bəxtinə al Günəşdən*
*Pay düşən Naxçıvanım,*
*Mənim Gənclər Paytaxtım,*
*Gəncləşən Naxçıvanım!*

*Beş min ildir dünyaya*
*Düşüb səsin, sorağın,*
*Tarixinə aynadır*
*Gəmiqayan, Duzdağın.*
*İşığı haqdan gəlir*
*Sən yandıran çırağın,*
*Tarix kimi qədimdir*
*Dağın, daşın, torpağın.*
*Əshabi-Kəhfdən deyir*
*O müqəddəs "Quran"ım.*
*Müqəddəslər diyarı –*
*Müqəddəs Naxçıvanım!*

*Sən Tusi, Cəlil, Cavid,*
*Bəhruzlar diyarısan,*
*Sinəndə izi qalan*
*Nuhun yadigarısan.*
*Sən ulu Öndərimin*
*Fəxri, iftixarısan,*
*Dilimdən düşmür adın-*
*Dilimin şüarısan.*
*Hər oğluna, qızına*
*Candan əziz məkanım!*
*Mərd övladlar böyüdən*
*Ey, ana Naxçıvanım!*

*Min bir naxış vurulur*
*Yenə torpağa, daşa.*
*Bu gün, Nəqşi-cahanım,*
*Gözəlsən başdan-başa.*
*Bir arzun, bir niyyətin*
*Toxunmasın qoy daşa.*
*Qurub-yaradan əllər,*
*Yaşa, səni yüz yaşa!*
*Bəxtinə al Günəşdən*
*Pay düşən Naxçıvanım,*
*Mənim Gənclər Paytaxtım –*
*Gəncləşən Naxçıvanım!*

**Asim YADİGAR**

## "Yaşıl nəfəs"

***Gözlərimiz bizə dünyanı, günəşi, ətrafımızda baş verənləri görmək üçün bəxş edilən ən gözəl hədiyyədir. Bu gözəllikləri yaradan əsas faktor rəng kateqoriyasıdır. Əgər hər bir şey yalnız ağ-qaradan, rəngsizlikdən ibarət olsaydı, o zaman yaşama sevinci, dünyaya baxışımız, mənfi mənada, tamam başqa cür olardı. Rənglər insanı ruhlandırır, sanki başqa aləmlərə alıb aparır. Bunu əsrarəngiz təbiətdə daha çox müşahidə edirik. Gəlin onlardan bir neçəsini göz önünə gətirək. Başımızı qaldırıb göy üzünə baxsaq, səmada mavinin, lalələrdə qırmızının, meşələrdə yaşılın gözəlliyini görmüş olarıq.***



Təbiət, əslində, bizə rəngləri, gözəllikləri ilə sanki nəsə anlatmaq istəyir. Bütün fəsillərdə bu gözəlliklər özünü bir başqa cür büruzə verir. Baharda ağacların çiçəkləməsi, yayda hər bir tərəfin yamyaşıl don geyinməsi, payızda bu örtüyün xəzana çevrilməsi, qışda isə ağ örtüklə bəzənməsi sanki bir möcüzədir. Görüntü etibarilə möhtəşəmliyə imza atan təbiət yalnız bununla kifayətlənmir, öz növbəsində, oksigen bolluğunu da təmin edir. Yayda bu, daha qabarıq şəkildə üzə çıxır. Çünki hər tərəfin yamyaşıl olması havaya da öz təsirini göstərməkdən yan keçmir. Təmiz hava su qədər gərəklidir. Belə ki, qəbul etdiyimiz hava əgər çirkli, oksigeni az olsa, sağlamlığımızda ciddi şəkildə problemlər yaranar. Ancaq bu problemlərin yaranmasına yol verməmək biz insanların öhdəsinə düşür. Öz həyatimizdə bir neçə ağac əkir, yaşıllıq yaradır, onlara qulluq göstərir, vaxtlı-vaxtında suvarırıq. Adi, balaca bir dibçəkdə də bu yaşıllığı yarada bilərik. Bununla həm özümüzə, həm də başqalarına həyat, can vermiş olarıq.

Yaşıllıq gözəllikdir. Bu gözəlliklər istər yaşadığımız, istər təhsil aldığımız, istərsə də iş yerlərində bizə xoş əhval-ruhiyyə bəxş edir.

Yaşıllıq nə qədər oksigen mənbəyi olsa da, ətrafa atılan tullantılar karbon dioksidin miqdarını bir o qədər artırır. Sevinirik ki, şəhərimizdə belə hallara rast gəlinmir. Çünki hər tərəf səliqə-sahman içərisindədir. O da qürurvericidir ki, bu səliqə-sahman hər bir vətəndaş tərəfindən qorunur. Ətraf mühiti qorumaq məqsədilə muxtar respublikamızda qısa zamanda tullantıların zərərsizləşdirilməsi, təkrar emalı, yenidən istifadəsi, həmçinin az tullantılı və ya tullantısız texnologiyaların tətbiqi istiqamətində zəruri işlər görülür.

Təmiz havada gəzintiyə çıxmaq insan sağlamlığı üçün çox faydalıdır. Xüsusən də səhər gəzintiləri ağciyərlərimizin normal fəaliyyətində mühüm rol oynayar. İqlimin ekoloji təmizliyini isə yaşıllıqlar təmin edir. Ətrafımızda yaşıllıq nə qədər çox olsa, bir o qədər də sağlam yaşaya bilərik.

Yaşıllıq sahələri meşələrdə daha çox üstünlük təşkil etdiyi üçün insanlar dincəlmək, bir növ rahatlıq tapmaq üçün isti havalarda tez-tez belə yerlərə üz tuturlar. Bəzi ölkələrdə ağacların kəsilib məhv edilməsinə, yandırılmasına hələ də rast gəlinir. Ancaq ölkəmizdə və muxtar respublikamızda yaşıllıqların tam şəkildə qorunub mühafizə olunması üçün yüksək standartlar mövcuddur. Günümüzün ən aktual vəzifələrindən olan yaşıllıq zolaqlarının artırılması və onların yüksək səviyyədə qorunub saxlanılması üçün hər cür şərait yaradılıb. Şəhərimizin və rayonlarımızın yol kənarlarında, yaşayış, idarə, müəssisə binalarının dörd bir tərəfində salınan yaşıllıqlar göz oxşayır. Bu cür yaşıllıqlara göstərilən qulluq və bərpa işlərinin aparılması çox böyük əhəmiyyət daşıyır. Hər şənbə günü keçirilən iməciliklər də bunun bir sübutudur. Qürurverici haldır ki, sakinlər bu iməciliklərdə fəallıq göstərirlər. Hamılıqla dərk edirlər ki, yaşıllıqları qorumaq, artırmaq, onlara qayğı göstərmək hər bir vətəndaşın mənəvi borcudur. Çünki yaşıllıq sağlam həyat deməkdir.

**Telli MUSTAFAYEVA**

## Muxtar respublika idmançıları iyul ayında 13 medal qazanıb

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar "Gənclik" Mərkəzində "Hünər" XII Vətənpərvərlik Mahnıları Festivalının seçim, final mərhələləri və qaliblərin mükafatlandırılması mərasimi, Naxçıvan şəhərindəki mərkəzi meydanda Bakı şəhərindən dəvət olunmuş müğənnilərin ifasında konsert proqramı keçirilmişdir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil alan gənclərin Ağbulaq İstirahət Mərkəzində "Yay məktəbi" təşkil olunmuş, Naxçıvan şəhərindəki "Zirvə" Kitab Evində "Kitablar tozlanmasın" devizi altında yeni layihəyə start verilmişdir.

İyul ayında Kəngərli rayon mərkəzi stadionu yenidən qurularaq istifadəyə verilmiş, muxtar respublikanın gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birinciliklərinin açılışı olmuşdur. Bu dövrdə idmançılarımız muxtar respublika birinciliklərində 4, Avropa birinciliklərində 3, ölkə birinciliklərində 3, beynəlxalq turnirlərdə 3 olmaqla, 13 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Fiziki şəxslər tərəfindən gətirilən mallar hansı hallarda və qaydada saxlanca götürülür?*

**Cavab:** Tələb olunan gömrük ödənişləri ödənilməyən, həmçinin qadağan olunsa da, müsadirə edilməsi qanunla nəzərdə tutulmayan mallar gömrük orqanları tərəfindən müddət müəyyən edilməklə saxlanca götürülür. Malların müvəqqəti saxlanc müddəti maksimum 4 aydır. Ölkə ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması qadağan olunmuş malların saxlanc müddətinin son həddi isə 3 sutkadır.

Mal sahibləri saxlanca götürülmüş malları müəyyən olunmuş müddət çərçivəsində geri qaytarmaq və müvafiq gömrük ödənişlərini ödəməklə onları götürmək hüququna malikdirlər.

Malların saxlanca götürülməsi, saxlanılması və aidiyyəti üzrə təhvil verilməsi "Gömrük sərhəd-buraxılış məntəqələrinin ərazilərində yerləşən müvəqqəti saxlanc anbarlarının fəaliyyətinin təşkilinə dair Texnoloji sxem"ə uyğun olaraq tənzimlənir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 18 may 2016-cı il tarixli qərarına uyğun olaraq xüsusi saxlanc şəraiti tələb edən və xüsusi saxlanc şəraiti tələb etməyən hər 100 kiloqram (brutto çəki) malın 24 saat ərzində saxlanılmasına görə müvafiq gömrük yığımları nəzərdə tutulur. Xüsusi saxlanc şəraiti tələb edən mallar xüsusi avadanlıqla təchiz edilmiş anbarlarda saxlanılır. Saxlanca görə malların gömrük yığımları hesablanarkən çəkisi 100 kiloqramdan az olan mallar 100 kiloqrama, 24 saatdan az müddət isə tam 24 saata bərabər tutulur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 557